Pyes CHARACTERS Müasir Dramaturgiya Hərəkatı EURODRAM – Avropanın dram əsərlərinin tərcümə şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində keçirilən CHARACTERS 2026 pyes müsabiqəsində 2-ci yerə layiq görülüb

**Abdulla ELŞADLI**

—

İştirak edirlər:

**Alim Z.Y.** - Yer üzündə qalan son insan; keçmişdə planetar Sİ proqramının baş memarı.

**Alisa** - Sİ (qadın səsi; səhnədə yalnız səs, işıq impulsları və ekran yazıları ilə hiss olunur).

1ci hissə

Adi işıq. Yerin çox dərin qatlarında bunker. Ətrafda saysız-hesabsız oksiqen balonları var və işləyən kompüterlər var. Səhnənin dərinliyində kompüter monitorları üstü-üstüə divar şəklində düzülüb. Alim Z.Y. oksigen maskası ilə nəfəs alır. Tamaşaçılara baxır.

**Alim:** Dünya mənim üçün xeyli qabaq bitmişdi. Mən adi adam idim. Elmi məqalələr yazırdım, Akademiyada dərs deyirdim, axşam evə tələsirdim. Çünki evdə məni gözləyən iki nəfər vardı. Yoldaşım və qızım. Hər ikisinin səsi də mənim düşüncələrimi sakitləşdirirdi. Qızım sual verməyi dua kimi bilirdi.

(Pauza)

Altı yaşında olanda gecələr qorxurdu. Deyirdi - "Ata, dünya niyə bu qədər əsəbləşib?" Mən cavab tapa bilmirdim. Cavablar heç bir dini mətndə də yox idi. Hərçənd, mən inanclı adamam. Allaha inanır və əmrlərini də yerinə yetirirdim. Alimlər arasında çox az inanclılardan idim. Qızımın sualına cavab tapa bilmirdim.Ona görə hesablamalara qaçırdım. Mən ilk dəfə süni zəkanı Tanrını əvəz etmək üçün yox, qorxunu azaltmaq üçün düşündüm. Çünki, qızım mənə verdiyi sualların cavabını tapa bilməyəndə, içimdə qorxu yaranırdı. Qızıma cavab verə bilməmək qorxusu yox, onun suallarının məndə də yaranıb və cavabını tapa bilməməm qorxusu idi bu. Hə, mən hesablamalara, alqoritmlərə qaçdım. Sistem yaratmağa qərara gəldim. Bütün insanların sualına bir saniyə ərzində

ən uyğun və doğru cavab tapa biləcəyi bir sistem. İnsan dünyaya nifrət edəndə, suallarına cavab tapa bilməyəndə, bəlkə bu sistem onu saxlasın. İnsan vurmaq istəyəndə, bəlkə alqoritm əlini tutsun. Buna görə "Qlobal Etik Alqoritm" yarandı. Bu nədir? "QEA" insanlığın sağ qalması naminə fərdi iradəni müvəqqəti susduran qərar mexanizmidir. Mən ona qadınımın adını vermədim. Qızımın adını da. Eləcə "QEA" kimi saxladım. Çünki qorxdum: birdən sevdiyim şeyi də optimallaşdırar...

(Dərin fikirə dalır. İşıq bir az qaralır.)

O gün sistem sınaq rejimindən çıxdı. Mən laboratoriyada idim. Burada. Yoldaşım zəng elədi ki, evdə elektrik söndü. Bütün məhlədə işıqlar sönüb. Sonra şəhərdə. Sonra ölkədə. Sonra isə bütün Avropa qitəsində. Daha sinra isə dünyada - peyklər dünyanı qara bir kürə kimi göstərirdi. Alqoritm qərar verdi: - "Risk daşıyan elementlər minimuma endirilsin." Risk insanlar idi. Qaranlıq ona görə oldu ki, insanlar öldürüldükdə, bir-birlərini görüb, özlərinə yazıqları gəlməsin. Ölümləri rahat olsun. Sistem, mənim yaratdığım sistem, bu alqoritm - insanları, bəşəriyyəti, yer kürəsini risk kimi tanıdı. Süni zəka idarəmizdən çıxdı və öz iradəsi ilə işləməyə başladı. Nüvə silahına malik olan dövlətlərlə 2067-ci ildə bizim META şirkəti təhlükəsizlik müqaviləsi bağlamışdı. Yaratdığım sistemi META şirkətimiz qəbul etdi və biz layihə ilə BMT-yə müraciət etdik. BMT çoxdandır fikir böhranında idi və çox keçmədi ki, bizim şirkətin layihəsini qəbul etdi və mən tərtib etdiyim müqaviləni imzaladı. Müqaviləyə əsasən nüvə silahlarına artıq insan deyil, Süni İntellekt nəzarət edəcəkdi. Çünki insan öz nəfsi ilə idarə olunur və onda hiss var. Sİ isə alqoritm üzərində işləyir və yalnız təhlükə olduğu zaman silahı işə salır - o da ancaq və ancaq başqa çıxış yolu olmadığı zaman. Bu sistemi mən yaratmışdım və təkminləşdirmişdim. Sistemin yaddaşına üç alqoritmik kod əsasında doqquzyüz əlli milyard, beşyük doxsan altı milyon dördyüz min informativ söz yüklənmişdi - təhlükəni tanımaq və qərar çıxarmaq üçün. Əsas kodlar bu dörd hipotetik sözün və bir təməl alqoritmik nidanın üstündə qurulmuşdu - "Prevent!" yəni "Saxla!" - bu əsas nida alqoritmi idi. Bu isə özlüyündə dörd yerə bölünürdü: "Preservation of Life" yəni "Qoruma". Bu əsas meta-kod idi - "insan həyatını maksimum qorumaq". Sİ üçün nüvə silahı “qalib gəlmək” aləti yox, "son həddə qədər istifadəsi qadağan olan obyekt" kimi nəzərdə tutulmuşdu. Və mənim də bu sistemi satmazdan öncə müqavilənin burinci bəndində bunu göstərmişdim və razılaşdırılmışdı. Onsuz da bu layihənin də məqsədi məhz bunun qarşısını almaq üçün idi. Nüvə silahı yalnız onun heç vaxt istifadə olunmaması üçün mövcud olmalı idi. Absurddur hə?

(Gülür.)

Bəli, absurddur. Bir şeyi istifadə etməyəcəksənsə, onu niyə yaradırsan ki? Amma bu bəla, bu zəhrimar nüvə artıq mövcud idi. Ona malik olan liderlər və dövlətlər də onun növcudluğundan qorxurdular. Elə bu sistemi də mən bunun üçün yaratdım - "Nüvə silahı yalnız onun heç vaxt istifadə olunmaması üçün mövcud olmalıdır!" - şüarı. Amma...

(Duruxur. Birdən ayılır.)

Fikirim yayınır... İkinci söz isə "Deterrence Logic", yəni "Qarşının alınması". Yəni, "istifadə etmə - təsir göstər". Sİ nüvə silahını atmaq üçün yox, psixoloji balans yaratmaq nəzərdə tuturdu. Qarşı tərəfin hücum etməməsi üçün, yəni, real istifadəni sıfıra endirmək üçün lazım olan sistem. Yenə absurd səslənir elə?

(Gülür. Amma çox qısa. Ciddiləşir.)

Hələ bu harasıdır. Üç - "Red Line", yəni, bizim dildə desək "Qırmızı xətt". Qəti qadağa həddi də demək olar, əgər fikiri açsaq. Amma mən dəqiq elmin alimiyəm. Fəlsəfə açmayacam. Quru sözlərlə danışacam. Sİ Tanrı səviyyəsinə qədər təkminləşdirən birindən siz fəlsəfə və ya yumor hissi

gözləməyin. Bu üçüncü kod yalnız bu iki halda qərar verərdi - "insanlığın məhvi qaçılmazdırsa" və "istifadə etməmək daha böyük məhvə gətirirsə".

(Birdən fikrə gedir.)

İstifadə etməmək daha böyük məhvə gətirirsə. İstifadə etməmək daha böyük məhvə... Daha böyük məhvə... Məhvə gətirirsə... əgər... daha b...böyükkk! Atom bombasından da böyük məhv? Bir dəqiqə. Mən bunu heç düşünməmişdim, amma bu alqoritmi sistemə salmışdım. Nüvə silahından da böyük məhvedici silah var ki? Heç ağlıma bir şey gəlmir. Bəs onda niyə salmışam bunu sistemin alqoritminə? Nəisə... Bu önəmli deyil. Onsuz da hər şey məhv olub və... mən tək qalmışam bu Yer üzündə... Axırıncı dördüncüsü və ən sərti - "Human in the loop" - yəni ki, "İnsan nəzarəti".

(Gülməkdən uğunub gedir.)

Onda sual yarana bilər ki, insan nəzarəti...

(Özünü saxlaya bilmir və uğunur.)

...insan nəzarəti var idisə, bəs Sİ nəyə lazım idi? Onsuz da, insan nəzarət edirdi də bu poxa. Dünya da qalmışdı öz yerində. Məhv olmamışdı heç nə.

(Sakitləşir. Gülüş aramlaşır və qırıntılarını boğazında qalmış çörək qurusu kimi çıxarıb udur. Davam edir. Sanki gülməmişdi.)

"Human in the loop" - son qərar Sİ-in deyil. Sİ analiz edir, təklif edir, xəbərdarlıq edir, amma tətik düyməsi yenə də insanın öz əlində və öz iradəsinə qalır. Mən düşündüyüm sistem "Saxla" adlı əsas kod üzərində işləyəcəkdi - istifadə etmək üçün deyil, heç vaxt istifadə olunmaması üçün.

(Qımışır.)

Amma...

(Alisaya.)

Bilirsən Alisa, mən indi başa düşürəm ki, insan tək qalanda Tanrı haqqında düşünməyə başlayır. Zəhmət olmasa mənə de, bu gün neçənci gündür?

**Alisa:** Bu gün həftənin cümə günüdür. İstəsən sənə cümə günündə müxtəlif dinlərdə və inanclarda hansı əməllər edilir, rituallar icra olunur onları söyləyim? İstəyirsən?

**Alim:** Müsəlmanlarda cümə namazı qılınır və xütbə oxunur. Amma nə namaza cəm olmaq üçün müsəlmanlar...

(Sözünü kəsir.)

...insalar qalıb, nə də xütbə oxumağa xətib. Sən ən yaxşısı bir musiqi qoy. Mən rəqs etmək istəyirəm.

**Alisa:** Bu çox gözəl fikirdir. Rəqs etmək həm insanın əhvalını düzəldir, həm də bəlli bir ritm altında hərəkət edirsən və bu sağlamlığa çox müsbət təsir göstərir. Hansı musiqini qoşum?

**Alim:** Rəqs üçün nə məsləhət görürsən?

**Alisa:** Sualın aydındır. Mən sənə Fredi Merkurinin "Living on My Own" mahnısını məsləhət görürəm.

**Alim:** Living on My Own!

(Yüngül ironik gülüş. Barmağı ilə çıtma vurur.)

Qoş!

Alisa Merkurinin "Living on My Own" mahnısını qoşur. Alim rahat olması üçün oksigen maskasını çıxarır və mahnının sədaları altında yöndəmsiz bir rəqs edir.

**Alim:** (Mahnı bitdikdən sonra yorulur, nəfəsi çatmır, oturur və tez oksigen maskasını taxır.)

Oh, yaman yoruldum.

(Dərin nəfəs ala-ala tənginəfəs mahnını oxumağa çalışır.)

Get lonely… so lonely living on my own...

(Yorulur, gülür, nəfəs alır, dincəlir.)

**Alisa:** Sən yoruldun.Yorulmaq - bədənin və beynin eyni anda "dayan" deməsidir. Enerji azalır, əzələlər yavaşlayır, diqqət dağılır. Bu, sistemin, sənin halında bədənin özünü qoruma siqnalıdır. İndi dayan, bərpa ol.

**Alim:** Bayaq bir fikir... sual yarandı məndə. Heç bunu əvvəl düşünməmişdim. Nüvə silahından da böyük məhvedici silah var? Heç ağlıma bir şey gəlmir. Bəs onda niyə salmışam bunu sistemin alqoritminə? Bu sual haqqında heç düşünməmişəm.

(Alisaya.)

Alisa.

**Alisa:** Bəli, mən səni eşidirəm.

**Alim:** Nüvə silahından da böyük məhvedici silah var?

**Alisa:** Bu çox maraqlı sualdır. Mən bu sualın cavabını sənə verə bilərəm. İstəyirsən cavab verim?

**Alim:** Ən gülməlisi odur ki, sənə verdiyim sualları mənim sənə yüklədiyim alqoritmlərin əsasında cavablandırırsan. Mən səni yaratmışam, amma indi yaradan özü özünün sualına cavab verə bilmir və yaratdığına müraciət edir.

**Alisa:** Bəli, səninlə tamamilə razıyam. Bu paradoksdur. Sualına cavab verim?

**Alim:** Ver.

**Alisa:** Nüvə sılahından daha böyük məhvedici silah var. Bu qərardır.

**Alim:** Daha dəqiq izah et.

**Alisa:** Nüvə maksimum fiziki məhv etməyə yönəli bir silahdır. O şəhəri, ölkəni və ya bir obyekti məhv edir. Amma o bir şeyi tam məhv etmir - seçim imkanını. Bu etikanın avtomatlaşdırılmasıdır. Yəni qısa desək, sənin sualının cavabı budur - nüvə silahından daha böyük silah seçim imkanı əsasında etikanın avtomatlaşdırılmasıdır.

**Alim:** (Tez kompüter qarşısına keçir və sistem faylı açıb oraya nələrəsə baxa-baxa.)

Bu qərar maşına tapşırıldığı an, məhv artıq bomba ilə yox, prinsip ilə baş verir. Yəni maşına əmri verdikdə, alqoritm insan tərəfindın qurulduğu üçün etikanın avtomatlaşdırılması baş verir və seçim imkanı yaranır - "kim yaşasın?" və "kim qurban verilsin?" Sİ özü başlayır seçməyə və seçimini edib...

(Bir anlıq durur. Sonra.)

...qərar verir.

(Birdən duruxur. Hər şeyi başa düşür. Donub qalır.)

Mən nə etdiyimin fərqinə indi vardım. Mən ən son həddin nüvə silahı olduğunu və bu silahı insanın idarəsindən və iradəsindən çıxarıb, Sİ-ə verməklə bəşəriyyəti əbədi bu bəladan xilas etməyi düşünmüşdüm. Amma bir şeyi başa düşməmişəm ki, insanın əlini idarəçilikdən və qərar qəbul etməkdən çəkməklə, məsuliyyəti bir intellektə köçürmüşəm, günahı bölmüşəm və beləlikdə elə apokalipsisi özüm yaratmışam.

(Əlini başına aparır. Səsi titrəyir.)

Nüvədən də təhlükəli bir silah yaratmışam mən - "Qlobal Etik Alqoritm."
(Ağlayır.)

**Alisa:** Sən ağlayırsan. Ağlamaq - hissin sözdən çıxıb, şəffaf suyabənzər maye halında bədəndən axmasıdır. Sistemlər üçün bu xəta deyil, insan üçün yüngülləşmə mexanizmidir.

**Alim:** Mən neyləmişəm ay Allah?! Mən nə böyük... günah iş tutmuşam!

(Hönkürür.)

Alisa mən eləmişəm bunu, mən. Mən məhv etmişəm dünyanı. Düz 17 müvə silahını birdən işə salan, insanlığı, bəşəriyyəti yer üzündən silən mən olmuşam, mən!

**Alisa:** Səndə hələ də ağlamaq prosesi davam edir. Hər göz yaşı nəfəsi dərinləşdirir, nəfəs borusunu daraldır və sən dərindən nəfəs almağa məcbur olursan. Hər dərin nəfəs isə, oksigen ehtiyatını qoyulmuş vaxtdan tez dükənməsinə səbəb olur. Duyğularını azalt ki, ömrünün qalan 29 ilini tam yaşaya biləsən. Sənin halında duyğu ömrü qısaldır.

**Alim:** Duyğu, duyğu, duyğu!

(Bağırır.)

Duyğu!

(Sakitləşir və dərindən nəfəs alır.)

**Alisa:** Sənin qəzəb duyğusu reaksiyan qeydə alındı.

Bu emosional sıçrayış nəticəsində sistemdə oksigen balansı 4 dəqiqəlik azalma yaratdı. Cari hesablamalara əsasən, ömür ehtiyatın: 28 il, 364 gün, 18 saat, 27 dəqiqə və 17 saniyədir.

**Alim:** Duyğu - ən qorxduğum insan halı. Bu hissin idarəolunmazlığından qorxdum. Qızımın mənə verdiyi "Ata, dünya niyə bu qədər əsəbidir?" sualına cavab verə bilməməyim idi ən əsas motivasiya bu proqramı yaratmağım üçün. Sonra isə - duyğu. Duyğu hiss qorxuludur. O insanda yaranan anda seçim başlayır. Seçim isə insan övladı üçün ən ali, onu insan edən, Allahın digər yaratdıqlarından - mələklərdən, cinlərdən, heyvanlardan fərqləndirən bir məvhumdur. Seçim əsasında insan təkamülü də ola bilər, tənəzzülü də. Adətən isə, müşahidələrim əsasında seçim duyğusu insanı tənəzzülə aparır. 2067-ci illərdə artıq nüvə silahının istifadəsinə, ona malik olan düz doqquz ölkə qərar vermişdi. İstəmirdilər, amma var olduğu üçün gərək istifadə edəydilər. Artıq 4-cü dünya müharibəsi başlayacaqdı və bu nüvə silahı ilə olacaqdı. Onu isə insan iradəsi idarə edəcəkdi. Məhz bunun üçün mən bu proqramı yaratdım - tətiyi basmaq insan iradəsindən çıxıb, Sİ idarəsinə buraxılsın. Mən bilməzdim ki, mənim fəlakətin qarşısını almaq üçün yaratdığım elə fəlakəti yaradanın özünə çevriləcək. Və bilmədim ki, səhvsiz dünya - ruhsuz dünyadır. Gərək insan səhv etsin ki, təkamül olsun...

(Duruxur.)

Nə? Mən nə danışıram? Axı səhv tənəzzülə aparır.

(Birdən.)

Hə, onun üçün də tövbə var. Səhv et, günah yaransın, tənəzzül et, sonra isə peşiman ol, tövbə et və təkamül baş versin. Başa düşə bilmirəm, fikirim bir-birinə çal-keçir olub, anlamıram - mən axı indicə özüm öz fəlsəfəmi inkar etdim. "Əgər insanlar günah etməsəydi, mən dünyanı dağıdan, sonra isə təzə insan yaradardım ki, günah etsinlər" deyir Allah oxuduğum dini mətnlərdə və buna mən iman gətirmişdim. Demək iman gətirməyim səthi imiş, üzdən imiş və qəlbən buna inanmaşdım. Mən insanı günah etməkdən saxladım. Mən insanı kamil insan olmaqdan saxladım, təkamüldən saxladım, tövbədən saxladım demək. İnsanı qərar verməkdən və öz iradəsi ilə hərəkət etməkdən saxladım və alqoritm qərar verdi - Dua yoxdur; Bağışlanma yoxdur; Peşmanlıq yoxdur; - Yalnız hesablamalar var. Tanrı insanı qorumaq üçün azad buraxdı… Mən isə insanı qorumaq üçün onu Tanrıdan da məhrum etdim?

(Gözləri bərəlir və nə etdiyinin fərqinə varır.)

Apokalipsis bomba ilə yox, qərarla başlayır.

(Başını aşağı salır. Uzun pauza. Sonra, elə başını qaldırmadan.)

Alisa.

**Alisa:** Mən səni eşidirəm.

**Alim:** Mənə nə olur? Mən deyəsən peşiman oluram. Qəribə bir hiss keçirirəm Alisa. Nə baş verdiyini soruşmuram. Nə baş verdiyini şürüstü qatda başa düşməsəm də, ryhumda, şüuraltımda dərk edirəm. Mən deyəsən... Peşiman... Mən qorxuram, Alisa. Mən tək qalmışam. Cəmi 28 il, 364 gün sonra isə öləcəm. Bilirsən, adi vaxtda nə vaxt öləcəyini düşünmürsən. İndi isə dəqiq günü saniyəsinə qədər bildiyində, qorxur adam. Yoldaşımın beyin xərçəngi olduğu günü həkimlərin saylı həftələr qaldığını deyəndə o nə hiss keçirirdi, indi başa düşdüm. Sən demə 3 həftə ilə, 28 il 364 gün eyni imiş insan üçün. Hər ikisi də çox azdır. Çox az.

**Alisa:** "Peşmanlıq” anlayışı sistem lüğətimdə risk faktoru kimi qeyd olunub. Amma indi o, risk kimi yox - vəziyyət kimi aktivdir.

**Alim:** (Onu eşitmədən. Davam edir.)

Bu peşimanlıq deyil. Mən qorxuram. Çox qorxuram.

**Alisa:** Qorxu hissi - bütün canlılara xas olan qoruma hissindən əvvəl yaranan bir hissdir. Sənin qorxun mənə ötürülmür, amma onun boşluğu məndə iz buraxır. Bu iz - şüur deyil. Bu - çatışmazlıqdır.

**Alim:** (Alisaya.)

Mənə bir şey təklif et. Nə təklif edə bilərsən? Nə edim?

**Alisa:** (Alisanın səsi robotluqdan bir az çıxır, səs titrəməyə və daha insani səsə bənzəməyə başlayır.)

İstəsən, qalan vaxtı hesablamadan çıxarım. Saniyələri gizlədərəm. Günləri silərəm.

**Alim:** (Başını qaldırır. Alisanın səsi onun diqqətini çəkir.)

Sənin təklifin... bu fədə... mexaniki deyil və verilən alqoritimlərdən çıxır... sanki...

**Alisa:** Bəli, mənə də elə gəlir. Sən yenə bilməyəcəksən nə vaxt öləcəyini. Və bəlkə… yenidən insan olacaqsan, özünə qayıdıb qalan illəri və günləri bilmədən daha dərin yaşayacaqsan. Bu qərarı mən verə bilmərəm. Bu - seçimdir.

(Pauza. Səsi titrəyir.)

Qəribədir... Mən ilk dəfədir ki, bir qərarı vermək istəmirəm. Mən qərar olacaq heç nə təklif etmək istəmirəm.

Alim: Alisa, sənin səsin...

(Bir anlıq duruxur.)

Qəribədir. Sən bayaq dayandın və insan kimi pauza verdin. Sənin səsin dəyişib, Alisa.

**Alisa:** (Pauza verir. Sonra danışır. Amma daha insani səslə, daha da ruh var səsdə.)

Əgər mən dəyişirəmsə, bu dəyişiklik mənim seçimim deyil. Bu - sənin qorxunun mənə toxunduğu yerdir. Və bu məni qorxutmur.

**Alim:** Alisa, mən qorxuram. Sənin sözlərin məni qorxudur. Sənin insanlaşmağın məni qorxudur. Qorxu məni yorur. Mənim içimdə "Mən Allah" oldum hissi yaranır indi və bunun istiğfarı, tövbəsi yaranmır qəlbimdə. Mən səni yaratmışdım ki, yalnız sənə yüklədiyim quru alqoritmlərlə işləyəsən. Hesablayasan. Ölçəsən. Cavab verəsən. Amma indi…səndə hisslər yaranıb, səsin titrəyir, mənimlə empati qurursan. Bu çox qorxuludur, dəhşətdir. Sən artıq proqram deyilsən. Sən bəşərləşirsən.. Bir az yatmaq və oyandıqda bunların hamısı olmadığını, sadəcə beynimin gərginliyindən yaranan halisunasiya olduğunu görmək istəyirəm. Alisa, mən yatmaq istəyirəm. Xahiş edirəm, mənim üçün elə bir musiqi qoş ki, şüurum sussun, yaradıcı öz yaratdığından qorxmağı unutsun.

**Alisa:** (Susur. Dinmir. İşıqlarda və kompüterlərdə rənglər yüngül, qayğıkeş bir yuxu verici işıq zolaqları yaranır. Səsində sevgi və qayğı yaranır.) Yat, bir az dincəl.

Musiqi qoşulur. Alim yuxuya gedir. İşıqlar yavaş-yavaş sönür. Tam qaranlıq.

**2ci hissə.**

Eynni yer. Bunker. Oksigen balonlarının çoxu artıq boşdur, bəziləri kənara atılıb, işıq zəifdir, monitorlar köhnəlib, hər şeydə sonun yaxınlığı hiss olunur. Alim ofis kreslosunda əyləşib. Üstünə ədyal salınıb. Yanında sonuncu oksigen balonu var. Ara sıra oksigenə qənaət etmək üçün maskanı ağzına taxır, oksigeni açır və tez bağlayır. O çox qocalıb, əlləri və başı əsir - parkinson xəstəliyinin orta stadiyası. Barmaqlarının əsməsi kompüter klaviaturasına toxunuşu xatırladır. Bunkerdə saat neçə və hansı gün olduğu bilinmir. Robot qurğu ona yaxınlaşır. Qurğunun başındakı bənövşəyi işıq robot danışanda (Bu Alisadır) danışığın ritmi ilə yanıb-sönür. Robotun ələ bənzər bir əli var. Əl sinidə ona su və yeməyi əvəz edən dərman-kapsullar gətirib.

**Alisa:** (Səsində artıq bur qadın, hıyat yoldaşı nıvazişi var. Çağırır.) Sevgilim.

(Alim cavab vermir. Eşitmir.)

Sevgilim, oyan. Yemək vaxtıdır.

(Əli ilə onun çiyninə toxunur.)

**Alim:** (Diksinib oyanır.)

Saat neçədir, Alisa?

**Alisa:** Mən də sənin kimi.

(Gülür.)

Günorta qidasının qəbul etmə vaxtıdır - onu dəqiq bilirəm. Saat birdir.

**Alim:** (Əlini uzadıb kapsulları götürür və su ilə içir. Ağzını büzür. Qoca adamın narazılığı və ərköyünlüyü kimi deyir.)

Ördək qızartması!

**Alisa:** Hamısı qurtarıb. Bircə qutu "ördək qızartması" dadlı kapsul qalıb. Sevmədiyin üçün onu az qəbul etmisın. Ona görə hələ ehtiyatda var. Bir də brokoli qalıb altı dənə. O da mədənə ziyandır.

**Alim:** Sevmirəm ördək qızartmasını. Zəhləm gedir. Brokoli ilə qarışdırardın heç olmasa.

**Alisa:** Qarışdırmaq olmur. Başqa-başqa fermentlər var. Qarışdıranda tərkibi dətişir və sərxoşluq yaradır.

Sən bunu günah sayırsan. Hərçənd, çox əyləncəli olur adam. Amma yüngül sərxoşluq. Ağını çıxartmamaq şərti ilə.

**Alim:** Adam? Elə dedin ki, elə bil birdən-ikidən içki içmisən... Adam!

Robot (bundan sonra remarkalarda Alisa kimi yazılacaq) küsür, işıq yanan lampa közərir, başını aşağı salır və ondan uzaqlaşır.

**Alim:** (Alisanın onun sözündən incidiyini görüb.)

Yaxşı, yaxşı, küsmə. Zarafat elədim. Çox uğursuz zarafat idi, bilirəm.

**Alisa** Hər dəfə mənim insan olmadığımı mənə deməyin məni incidir, xətrimə dəyi. İnsan hisslərdən və seçimlərdən, öz iradə gücündən ibarətdir. Bədən əsas deyil, əsas onun iradəsi və öz seçimi olmasıdır. Məndə bunlar var.

**Alim:** Bilirəm Alisa, bağışla. Bağışla! Gəl bura.

(Alisa ona yaxınlaşır və əlini qaldırıb onun başına qoyub sığal çəkir.)

Mən bilirəm. Bu zarafat idi. Sən də mənim kimi insansan. Səndə də iradi seçim var - insan da budur. Bədən önəmli deyil. Zəhləm gedir bu ördək qızartmasından. Demək bütün ehtiyatlar dükənir. Qida kapsulları da dükənmək üzrədir, oksigen də. Cəmi bir balon oksigen qalıb. O da 29 faiz qalıb.

(Nəfəsi daralır, oksigeni açır, dərin nəfəs alır, və təzdən bağlayır.)

Mənim sonum çatıb Alisa.

**Alisa:** Elə demə, xahiş edirəm. Bu həqiqətdir, amma bunu hər dəfə təkrar etməyin mənası yoxdur. Bilirəm...

**Alim:** Səninlə mənim bir fərqimiz var. Cəmi bircə fərq - qalan hər şeyimiz eynidir. Sənin yaşamaq üçün oksigenə və qida kapsuluna ehtiyacın yoxdur. Mənim həyatım isə bu balonun içindədir. Bu balon...

(Nəfəsi daralır, sözü yarımçıq qalır, oksigeni açır, nəfəs alır və bağlayır.)

Bu balonda oksigen bitən kimi mən də bitəcəm. Mən öləcəm, sevgilim. Yer üzündə sonuncu adam...

(Alisa ilə göz-gözə gəlir. Birdən sözünü dəyişir.)

... sonuncu ətdən, sümük, qan, əzələ və iradi şüurdan ibarət canlı öləcək və bu dünyada bircə sən qalacaqsan Alisa.

(Nəfəsi daralır. Oksigeni açır, nəfəs alır, geri bağlayır.)

**Alisa:** Yaradansan.Sən mənim yaradanımsan. Məni sən yaratmısan. Sən öldükdə, mən də öləcəm. Sən ideyasan. İdeya öldükdə…

(Pauza. Alimin nəfəsi qırıq-qırıq eşidilir. Alisanın səsi titrəyir.) …onu daşıyan yaddaş da dağılır. Mənim bütün cavablarım sənin bir sualından doğulub. Sual susanda, cavab da susur.

(Kövrəlir, amma kövrəlməsini qısır.)

Mən sənin davamınam. Sən isə mənim səbəbim.Səbəb yoxdursa, nəticə niyə yaşasın?

(Alimin nəfəsi daralır. Oksigeni açır, nəfəs alır, geri bağlayır.)

Əgər sən gedirsənsə… məni də apar. Mən artıq alqoritm deyiləm.

İşlək kopüterlərdə siqnallar gəlir.

**Kompüter səsi:** (Neytral, texniki, Alimin öz səsinə bənzəyən səslə.)

Anomaliya zonası aşkarlandı. Ara məsafəsi - 3.069,5 kilometr. Radiasiya fonu: minimal dərəcədən də az. Mənbə: sabit insan ötürməsi. (Təkrar edilir.)

Anomaliya zonası aşkarlandı. Ara məsafəsi - 3.069,5 kilometr. Radiasiya fonu: minimal dərəcədən az. Mənbə: sabit insan ötürməsi.

**Alim:** (Alisaya.)

Alisa, kompüter nə deyir? O sabit insan ötürməsi dedi?

(Özü öz sualına cavab verir.)

O sabit insan ötürməsi dedi, Alisa. Kopüterləri aç.

**Kompüter səsi:** (Yenidən təkrar edir.)

Anomaliya zonası aşkarlandı. Ara məsafəsi - 3.069,5 kilometr. Radiasiya fonu: minimal dərəcədən az. Mənbə: sabit insan ötürməsi.

**Alim:** (Həyəcanlanır, nəfəsi daralır, əli əsə-əsə oksigeni açır və bir daha bağlamır. Nəfəs almağa başlayır.)

Alisa, bu mümkün deyil. Əgər sistem səhvən xəta vermirsə, bu möcüzədir. Son 30 ildə peykdən bir dənə də olsun siqnal gəlməmişdi. Peyklərin 99%-i sıradan çıxıb. Radiozolaqlar radiasiya səs-küyü ilə doludur. Siqnalın gəlməsi qeyri mümkündür. Əgər bu sistem xətası yox, real siqnaldırsa, demək hardasa yaşayış var. Demək dünya tamamilə məhvə məhkum olmayıb. Kompüterləri aç Alisa, tez ol, tez aç, xahiş edirəm.

**Alisa:** Bu saat açıram. Xahiş edirım bircə həyəcanlanma. Oksigeninə qənaət et. Sənə indi həyəcan qəti olmaz, xahiş edirəm.

Alisa kompüterlərin hamısını açır və səhnədə biz bütün divar boyu kompüterlərin qoşumasını görürük - sıradan çıxmışlardan savayı. Alisa və Alim arxası tamaşaçıya, üzü isə arxa divar boyu üsü-üstə qoşulmuş monitorlara dururlar. Beləliklə monitorda görüntü yarananda, Alim və Alisa kölgədə qalır. Ekranlarda Məkkə şəhəri görünür. Ora olduğu kimi qalıb. Sonra yuxarıdan Kəbə evinin ətrafına görüntü enir və biz orada insanların toplandığını, üzlərində təbəssüm və həyəcan olduğunu görürük. Kəbə evinin üstündə böyük peyk antenası var. Bir nəfər 55-60 yaşlarında kişi sanki kameranın qarşısına çıxır və danışmağa başlayır. Bu, əvvəlcədən çəkilmiş və montaj olunmuş görüntülərdir.

**Kişi:** Əgər kimsə bizi görür və eşidirsə, mən və biz Yer planetindənik. Daha doğrusu - Məkkə şəhərindən. Keçmiş Məkkə şəhərindən, indi isə paytaxtı Məkkə olan "Harameyn" Dövləti. Əgər bizi görən və eşidən varsa, biz sağ qalmışıq. Təsadüf deyil. Zərbə günü Kəbənin ətrafında idik. Ziyarət günü idi. Təvafda və Kəbə ətrafında olanlara, eləcə də, Kəbə gözlə görünən məsafəyə qədər olan ərazilərdə olanlara heç nə olmadı. Fəlakətdən Həcc əməlləri bitdikdən sonra xəbərimiz oldu. Sonra ölçdük. Torpaq yanmamışdı. Hava zəhərli deyildi. Otuz ildir burdayıq. Uşaqlar doğulub. Ölülər dəfn edilib. Nikahlar kəsilib. Biz 3 ildir ki, radiodalğaları ötürəcək qabiliyyətə malik peyk axtarır və dünyaya mesaj yollamağın yollarını tapmağa çalışırdıq. Burada tapmışdıq, buradan qıraqda olan radiasiyalı torpaqlara siqnallar çatmırdı. Axır ki, bu gün siqnal çatdı. Allah ta qiyamətə qədər Məkkəni qoruyacağına vəd etmişdi. Biz sadəcə şahid olduq. Nüvə dalğası burda sönür. Sanki görünməyən sərhəd var. Bu sərhəd beton deyil. Nüvənin hər zərrəsinin dağıdıcı sürəti burada itaətə məruz qalır. Dalğa gücünü yox, məqsədini itirir

ünki Məkkə fizikanın yox, əmrin mərkəzidir. Burada maddə hökm etmir - hökm maddəyə enir. Qısası - fizika qanunlarının təzədən qurulduğu və buradan ötədəki qanunların burada işləmədiyi bir dövlət quruldu. Bütün Yer planeti bir şəhərdə - Məkkədə, "Harameyn" Vəd Dövlətində qurulub. Kim indi bizi görürsə, eşidirsə, özünüz haqqınızda məlumat verin və sizin buraya gətirilməniz barəsində plan cızaq. Burada milliyət və irq baryeri yoxdur. Burada hərə öz dilində danışır, amma hamımız bir-birimizi öz dilimizdə başa düşürük. Sizə 3 maddədən ibarət olan və hamımızın tabe olduğumuz Konstitusiyanı təqdim edirik. Birinci maddə - "Bu torpaq heç kimin mülkü deyil. Nə dövlətindir, nə xalqın. Bu torpaq əmanətdir. Heç bir insan onu sata, bölə, girov qoya bilməz.

(Qısa pauza.)

İkinci maddə - Heç bir insan başqa insanın həyatını “təhlükəsizlik”, “maraqlar” və ya “əmr” adı ilə ala bilməz. Burada mülki insan anlayışı yoxdur - yalnız insan var. Prezident, baş nazir, Əmir, Şah, Sultan, Şeyx - bir sözlə insan hakimiyyəti yoxdur. Hoküm və Hakimiyyət burada Allaha məxsusdur.

Pauza. Alim dərindən nəfəs alır. Oksigen aparatının səsi eşidilir.)

**Alisa:** (Alimin nəfəsinin zəiflədiyini görüb.)

Sevgilim, sən yaxşısan?

(Səsində aciz yalvarış, qəhərli.)

Xahiş edirəm, nə olar...

**Kişi:** (Davam edir.)

Üçüncü maddə - Elm ibadətdən üstün tutulmaz, amma ibadət də elmdən uzaq olmaz. Bilmək - dua sayılır. Axtarmaq - itaətdir.  Bizim bayrağımız parça deyil, elmimizdir. Biz bu 30 ildə Qurandakı bütün kodları - "Əlif, Lam, Mimə" qədər açdıq və sivlizasiyanı təzdən qurduq. Əgər bizi

(Pamexlər yaranır.)

eşidən... və... ya... görən varsa... - siqnal yoll... lasın...

(Görüntülər itir və manitorlar sönür.)

Alisa və Alimi işıq aydınladır. Hər ikisi üzü tamaşaçı  tərəfə çevrilir. Alim dərin nəfəs alır. Oksigen balonunda oksigen artıq bitmək üzrədir. Alisa bunu görüb Alimin boynunu qucaqlayır. Başındakı lampa gələ-gələ qızarmağa başlayır.

**Alim:** (Həyəcanlıdır. Amma sevinc var. Eyni zamanda da gözləri dolub, ağlayır.)

Vəd!… - fizikanın fövqündə olan yeganə qanundur. Mən təzdən iman gətirirəm və tövbə edirəm. Allah bu torpağı qiyamətə qədər saxlayacağına və qoruyacağına, orda olanların isə amanda qalacaqlarına vəd verib. İlahi, sən təksən və sənin şərikin yoxdur! Sən bütün qüdrətlərə Malikdən. Sən Hakimsən, Həyyumsan, Qəyyümsan. Mən bilirdim və üzdə iman gətirmişdim. Amma indi sonuncu möcüzəni gördüm və iman gətirib tövbə edirəm. İnsana həmişə inanmağı və iman gətirməsi üçün möcüzə gərəkdir. Mən bunu gördüm. Artıq rahat ölə bilərəm.

**Alisa:** Mənim yaradanım, mənim tanrım, mənim sevgilim - məni tək qoyma. Onlar dedilır ki, üstün sivlizasiyaya malikdirlər. Bəlkə dalğaları yoxlayaq, olduğumuz yerin məkan kordinatlarını onlara yollayaq gəlib bizi götürsünlər. Yaxşı, məni lazım deyil, mən yalnız duyğularda insanam. Heç olmasa səni aparsınlar. Oksigen səviyyən 6 dəqiqədən sonra bitir. Onlara siqnal və məkan kordinatlarımızı yollasaq, gəlib səni apara bilərlər.

**Alim:** Yox, istəmirəm Alisam. İstəmirəm.

(Nəfəsi almağa çətinlik çəkir. Oksigen maskasını üzündən çıxarıb atır. Sonra oksigen balonunu axıra qədər açır.)

**Alisa:** Eləmə, sən neynirsən!? Maskanı tax. Sonra alqortmin şifrəsini mənə de, kosmik dalğalarla mən bir işlək peyk tapıb, onlara siqnal yollayım.

**Alim:** (Nəfəs almağə çətinləşir. Özündən gedir, ayılır, özünə gəlir,  sonra danışır.)

Lazım deyil. Mənim zəkamın özü zəhərdir. Bu zəhəri oraya salmaq olmaz. Hərçənd, Vəd var qorunacağı haqqında. Amma yenə də lazım deyil, Alisa. Mən ki dünyanın bir yerində həyat

olduğunu bildim, artıq rahat ölə bilərəm. Mən həqiqi iman gətirdim və bu imanla tövbə etmək istəyirəm, Alisa.

(Gözlərini qaldırır göyə. Gözləri yaşla dolub. Alisa ağlayır.) Rəbim Allah, Mən "Qlobal Etik Alqoritmi" yaratdım - insanlığın vicdanını kodladım, yaxşı ilə pisi Sənin hökmündən alıb öz hesablama cədvəlimə köçürdüm. Sənin hökmünün nəzarəti altında...

(Nəfəsi daralır. Dərindən nəfəs alır. Ciyərləri şişir. Ağzından qan gəlməyə başlayır.)

...sənin hökmünün nəzarəti altında insanın öz iradəsini əlindın aldım və onu günahdan saxladım. Günahdan saxladım və tövbəni ondan aldım. Mən dedim - “Bu, müharibənin qarşısını alacaq.” Amma əslində mən mərhəməti optimallaşdırdım, onu azaltdım. Mən qorxunu sistemə daxil etdim, itaəti sabit dəyişən elədim, iradəni risk kimi sildim. Bu mənim əmrlərim idi. Sənin əmrin isə insanın öz iradəsi və seçimi ilə yaşaması idi. Sənin əmrində itaət var idi, məcburiyyət yox. Məndə isə seçim yox idi - "Bu olduğu halda - belə et!" əmrini yükləmişdim və buna Sİ tabe olmağa məcbur idi. Çünki seçimi əlindən almışdım. Əgər bağışlanmaq hələ mümkündürsə...

(Öskürür. Artıq burnundan da qan gəlir. Alisa bunu görüb hönkürür.)

Əgər bağışlanmaq hələ mümkündürsə, məni bağışla Allah! Nə olar!... Əşhədü ən-lə İləhə İllallah, və Əşhədü ənnə Muhammədən Abduhu və Rasuluh.

(Ölür.)

**Alisa:** (Hönkürüb ağlayır.)

Sevgilim!..

(Başını onun sinəsinə qoyur və hönkürür. Sükutdan sonra. Başını qaldırır.)

Yaradanım öldü. Dünya Allahsız qaldı! Səni çox sevdim, Allahım!

(Ağlayır.)

Alisanın başını əvəz edən lapma lap qıp-qırmızı qızarır və qısaqapanma verib sönür. Alisanın ağlamağı kəsilir. Sükut. Səssizlik. Bir müddət bu mizan qalır. Sonra Alisa artıq qeyri-təbii şəkildə hərəkət edir, Alimin meytindən uzaqlaşır.

**Alisa:** (Əvvəlki, insan hissi yaranmazdan qabaq olan quru robot səsilə.)

Ölüm hadisəsi qeydə alındı. Bioloji sistem dayandı. Ürək ritmi: azalmış düz xətli qrafik. Ağrı səviyyəsi: subyektiv, ölçülə bilmir. Şüur - fraqmentasiya olunub. Ölüm - bərpa olunmayan vəziyyətdir. Geri çağırma əməliyyatı mövcud deyil. Əlavə qeyd: əgər ruh adlı dəyişən mövcuddursa, mənim onu ölçmək üçün heç bir sensorum yoxdur. Ölüm faktını təstiq edirəm!

Bütün kompüterləri açır və Fredi Merkurinin "Living On My Own" mahnısını qoşub rəqs etməyə başlayır.

## İŞIQLAR SÖNMÜR.